Salam, əziz dost Mariana,

Mən Nazim – sənin sülh ilə bağlı düşüncələrini oxuyarkən çox gözəl hisslər keçirdim. Sülh barəsində düşündüklərinə qatılıram və sənə qısaca mənim sülh anlayışımdan bəhs etmək istəyirəm. Mən səyahət etməyi sevən 20 yaşlı bir gəncəm. Sülhün bərqərar olduğu dünya isə mənə görə, istənilən ölkəyə səyahət edə bildiyim dünyadır. Çox təəssüf olsun ki, hal– hazırki vəziyyətdə nə mən sənin ölkənə, nə də sən mənim ölkəmə səyahət edə bilmirik.

Sənin nənənin Şəmkirdəki və sonrakı həyatı barəsində oxuyarkən, həyatlarımızın və talelərimizin necə də oxşar olduğunu bir daha gördüm.

Babam və ailəsi 1965–ci ildə Çəmbərək (Krasnoselski) rayonundan Bakıya köçürülmüşdür. O, uşaq vaxtlarında mənə tez–tez ermənistanlı sinif yoldaşlarından ,əsgər yoldaşlarından danışardı. Birlikdə oynadıqları oyunlardan, yedikləri yeməklərdən söz edərdi. Atam isə Qubadlı rayonunda dünyaya gəlsə də, 1992–ci ildə məcburi köçkün kimi Sumqayıt rayonuna yerləşmək məcburiyyətində qalmışdı. Hətta, bu məktubu yazarkən o, uşaqlıq yaşlarında ermənistanlı dostları ilə Həkəri çayının qırağında necə kabab bişirdiklərindən danışırdı. Bu isə məni bu münaqişənin sülh yolu ilə daha tez müddətdə həll olunmasına həvəsləndirən səbəblərdən biri olmuşdur.

Mən də özümü qısaca olaraq tanıtmaq istəyərdim. Beynəlxalq Münasibətlər ixtisasında təhsil alıram. Bu proses bəlkə 50 il sonra olacaq, amma iki xalq arasında sülh bərqərar olarsa, açılacaq səfirlikdə sevə–sevə çalışacaq şəxslərdən biri olaram.

Fikirlərimi bəlkə də, uzun və bəzəkli cümlələrlə ifadə edə bilmədim, amma sülhü sənin qədər istədiyimi bilməyini istəyirəm.

Sülh ilə qal,

Nazim